# İGİDLİYİN POVESTİ

Müasir ədəbi publisistikamızın tanınmış simalarından biri kimi Şəddad Cəfərovun müharibə qəhrəmanlarını yaxından tanıdıqca, çox aydın bir qənaətə gəlirəm; o, özünün qəhrəmanları ilə birgə bu gün Qarabağ uğrunda savaşa qoşulub. Bir müəllif olaraq Şəddad Cəfərov öz qəhrəmanları ilə birgə Qarabağ cəbhəsində vuruşdadır. Əlbəttə, əsgərlərimizin düşüncəsində, əsgərlərimizin mənəvi mühitində özlərinə məkan tutaraq düşmənə qarşı savaşmaqdadır. Çünki bu müharibə indiyə qədərki müharibələrə bənzəməz.

Son əlli ildən bəri, lap bir az da dəqiqləşdirsək İkinci Cahan savaşından üzü bəri ilk dəfə ən dəhşətli və üzücü bir müharibə ilə, özü də o müharibə ilə ki, Azərbaycan xalqı məğlub durumundan silkinib çıxdı. Düşmənin üstünə cəsarətlə yeridi. Canı, qanı, dili, hissləri, varlığı ilə bütövlükdə ilk dəfə xalq birliyinin şahidi olduq. Uşaqdan böyüyə hər kəs özünü Ali Baş Komandanın əsgəri bilir. Özünü onun yanında bilir. Şəddad Cəfərov özü də yazıları ilə birgə Azərbaycan əsgərini ruhən silahlandırmaq naminə onların yanındadır. Onun çox böyük məhəbbətlə haqqında yazdığı İkinci Cahan savaşının qəhrəmanları ruhən Qarabağ həqiqətinin nə demək olduğunu yaxşı bilir. Bir qələm əhli kimi, yazıçı-publisist kimi Şəddad Cəfərov əsasən İkinci Cahan savaşının qəhrəmanlarını ideolizə edir. Bu da təbiidir. Çünki onlar savaşdan qayıdanda yeniyetmələrin və gənclərin idealı olaraq görünürdülər. İndi Şəddad Cəfərov kimi müəlliflər yaratdığı obrazlarla yeni nəsil gəncliyə Vətən həqiqəti haqqında dərs keçir.

Zənnimcə, Vətən həqiqəti anlamı Azərbaycan əsgəri üçün əsas güc mənbəyidir. Şəddad Cəfərovun İkinci Cahan müharibəsinin qəhrəmanları haqqında dedikləri burada yerinə düşür: "Mən istəyirəm yeni nəsil gənclər bilsinlər ki, ötən müharibələrdə də qəhrəmanlarımız olub. Onların döyüş yolu əsl təcrübə məktəbidir. Bu günün gəncləri onları yaxşı tanımalıdır. Müstəqil Azərbaycanın əsgəri həqiqətinə doğru yeriyir. Ölümün gözünün içinə dik baxaraq yeriyir. Ölümü öldürərək yeriyir. Az qala otuz il ərzində özünü qalib bilib, başqasının haqqını tapdayaraq tarixin gözünün içinə yalan danışan düşməni ruhən sarsıdaraq, onu mənən əzərək qalib bir cəsaratlə yeriyir ordumuz". Həyatın hər cür çətinliklərinə sinə gərərək müharibə dövrünün şahidi kimi o illərdən danışan Şəddad Cəfərovun dediklərinə haqq qazandırmamaq mümkün deyil. O, bütün yazılarında əsgər inamının mahiyyətini açır. Bir sözlə, onun yazdıqlarından belə nəticə çıxır ki, Azərbaycan insanının ruhunu səfərbər edən güc onun öz həqiqətinə inanmasıdır. Bu inamın yaranışında, qorunuşunda sözün rolu, sənətin təsiri az deyil. Varisliyi təmin edən körpü günümüzü tarixlə bağlayan örnəklərdir. Örnək insanlardır. Onları qorumaq, onlara əbədilik vermək üçün söz öz iksirini əsirgəmədi.

Şəddad Cəfərovun "Nəsillərə nümunə" adlı çox maraqlı bir povesti var. Həmin əsərdə müəllif İkinci Cahan savaşının məşhur bir qəhrəmanı haqqında söhbət açır. O əvvəlcə qəhrəmanın təbiəti, igidliyi haqqında təfərrüatı ilə danışmazdan öncə dəqiq tərcümeyi-hal qeydlərini verir: "Baloğlan Əmrah oğlu Rüstəmov 1922-ci il iyun ayının 22-də kəndli ailəsində dünyaya gəlib. Valideynlərini erkən itirən Baloğlan orta məktəbi bitirdikdən sonra Naxçıvan Müəllimlər İnstitutuna daxil olur. Lakin maddi vəziyyətinə görə təhsilini yarımçıq qoyaraq Bakı şəhərinə köçür və 15 nömrəli fabrik-zavod təhsilli məktəbə daxil olur. Bu təhsil ocağını bitirdikdən sonra neft mədənlərində işləməyə başlayır". Bir gəncin taley yolunun başlanğıcı, əsasən arzuları, müəllim olmaq istəyi bu qeydlərdən aydın görünür. Ancaq, həyat insanların istəyi ilə cərəyan etmir. Gözlənilməz hadisələr istəkləri dəyişir. İnsanın həyat yoluna yeni məcra açır. Beləliklə, İkinci Cahan savaşının başlanması da Baloğlan Əşrəf oğlu Rüstəmovun həyatına yeni məcra bəxş edir. Biz artıq müharibə dövrü faktlarını müəllifin qeydlərində ardıcıl olaraq oxuyuruq: "1941-ci ilin oktyabr ayında B.Rüstəmov hərbi xidmətə çağrılır və Qızıl Ordunun hava-desant qoşunlarında xidmət etməyə başlayır. 1942-ci ilin mayından 1944-cü ilin sonunadək Taman və Tuapse şəhərinin müdafiəsində iştirak edir. B.Rüstəmov 18-ci ordunun 32-ci qvardiya diviziyasının, sonra isə şimali Qafqaz cəbhəsinin 56-cı ordusunun tərkibində döyüşlərdə iştirak edib.



Onun sonrakı döyüş fəaliyyəti isə 1-ci Belarus cəbhələrində olub. Həmin illərdə Rüstəmov baş serjant rütbəsində idi. Lakin hərbi cəhətdən çox hazırlıqlı olduğuna görə zabit vəzifəsini yerinə yetirərkən həm zirehli transportun, həm də kəşfiyyat bölüyünün komandiri olub. Faşist işğalçılarına qarşı gedən döyüşlərdə igidlik, nümunəsi göstərib. Üç dəfə döyüşlərdə yaralanıb və kontuziya alıb. Qospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdıb". Dəfələrlə yaralanan, ağır döyüşlərdə ölümlə üzüzə gələrək canından keçməyə hazır olan azərbaycanlı qəhrəman hər dəfə müalicə olunaraq döyüşlərə qayıdır. Bu da onun mənəvi mühitində Vətənə sədaqətin kristallığından xəbər verir. Cəsarəti, igidliyi ilə döyüş yoldaşlarına örnək olur. Ən ağır zamanlarda cəsarət göstərərək səngərdən çıxır və düşmən üstünə atılır. Bu da nəticədə onun adının əfsanələşməsinə səbəb olur. Bir-birinin arxasınca Ali Baş Komandanlığa təltif təqdimatları gedir. O dövrün Rusiya mətbuatında, müharibə dövrü xronikalarında B.Rüstəmovun - bu azərbaycanlı igidin adı tez-tez çəkilirdi. Təltiflər də müəllifin yazdığı kimi bir-birinin arxasınca sıralanırdı: "Alman-faşist işğalçılarına qarşı gedən döyüşlərdə qəhrəmanlıq, göstərdiyinə görə B.Rüstəmov 3-cü və 2-ci dərəcəli "Şərəf", 1-ci və 2-ci dərəcəli "Vətən müharibəsi" ordenləri və müxtəlif medallarla təltif olunub". Beləcə, Şəddad Cəfərov öz qəhrəmanını müharibənin odlarından, alovlarından keçirir. O əsil gülləbatmaz əfsanəvi qəhrəman kimi sağ qalır. Yeni başlanan dinc quruculuq həyatında öz yerini daha düzgün, daha dəqiq tapmaq üçün birinci növbədə təhsil almalı idi.-

Yaxşı bilirdi ki, təhsilsiz yeni həyatda yaxından iştirak edə bilməyəcək. Nə qədər müharibə dövrünün qəhrəmanıdırsa, bir o qədər də yeni həyatın fədakarı olmaq üçün təhsilə yiyələnməli idi.Müəllif qəhrəmanının bu dövr həyatını da faktlara istinadla təqdim edir: "Müharibədən sonrakı dövrdə B.Rüstəmov Moskva İqtisad İnstitunu bitirib. Kür-Araz su-tikinti kanalı və Əli Bayramlı meliorasiya müəssisəsində məsul vəzifələrdə çalışıb. 10-il Azərbaycanın Daxili İşlər orqanlarında xidmət edib. Naxçıvan Vilayət Partiya Komitəsinin qərarı ilə B.Rüstəmov Araz çayı üzərində İranla birlikdə hidro-elektrik stansiyasının tikintisində kadrlar şöbəsinin rəisi vəzifəsində çalışıb. 1980-cı ildə isə Naxçıvan Muxtar Respublikasının Yerli Sənaye naziri vəzifəsinə təyin olunub". Beləliklə, məsul vəzifələr, yeni təyinatlar bir-birini əvəz etdikcə biz B.Rüstəmovu həyatın ön sıralarında görürük. O heç vaxt, heçbir çətinlikdən qorxmur, çəkinmir. Ən yüksək vəzifələrdə əqidəsinin saflığına, şəxsiyyətinin bütövlüyünə söykənir. Adını ləkələyəcək heç bir əmələ yol vermir. Beləcə, 80-ci illərin əvvəllərinə qədər onun həyat yolu ləyaqətli bir insanın, bütöv xarakter sahibi olan şəxsiyyətin ömür yolu olaraq xarakterizə olunur. Şəddad Cəfərov digər müharibə qəhramanlarından fərqli olaraq onun haqqında sonsuz sevgi və ehtiramla söhbət açır. Faktlar vasitəsilə həta ömrünün təqaüddə olduğu çağlara belə işıq salır. Təqaüddəki dövrün özünəxas cəhətləri var. Bir var özün əməli fəaliyyətinlə yeni həyatın qurucusu olasan, bir də var yeni həyatı quranlara öz həyatın, xatirələrin əsasında məsləhətlər verəsən, yol göstərəsən. Şəddad müəllim təqaüddə olan Baloğlan Rüstəmovun həyatının bu mərhələsinə də diqqət göstərir. Onun hörmətini və nüfuzunu, ağsaqqallığını, insanların ona dəyər verməsini ayrıca işıqlandırır: "1984-cü ildə təqaüdə çıxdıqdan sonra da əmək fəaliyyətini davam etdirərək Xalq Təsərrüfatı sahəsində işləməyə başlayıb. Ümumittifaq Veteranlar Təşkilatıyarandığı gündən bu təşkilatın tərkibində məsul işlərdə çalışıb. Müharibədən sonrakı xidmətlərinə görə "Şərəf" ordeni, DİN orqanlarında "Əvəzsiz xidmətlərinə görə", "İctimai asayişin mühafizəsində fərqləndiyinə görə" medalları və fəxri fərmanlarla təltif olunub.B.Rüstəmovun adı Moskva Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən nəşr olunmuş "XX əsrin əsgəri" adlı tarixi kitaba daxil edilib. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Vətən qarşısında layiqli xidmətlərinə görə ona fərdi təqaüd təqdim edilib". Əgər belə demək mümkünsə, povestin xronikal, yalnız məlumat adlandırıla biləcək hissəsi burada başa çatır.

Hər bir adamın kimliyi onun həyatının müxtəlif mərhələlərində özünü təsdiq edən əməllərindən görünür. Şəddad Cəfərov da öz qəhrəmanının həyat yolu haqqında faktları qabaqcadan ona görə təqdim edir ki, oxucu onun həyatda kim olduğunu dəqiq faktlar əsasında doğru, düzgün təsəvvür edə bilsin. Ancaq yazıçı publisit olaraq Şəddad Cəfərov özünün təxəyyülü ilə yaratdığı qəhrəmanın obrazını sanki əsəri üçün bundan sonra işləməyə başlayır. Özü demiş axı B.Rüstəmov çətin və şərəfli həyat məktəbi keçib. Onun çətin və şərəfli həyat məktəbi haqqında daha ətraflı söhbət açmağı müəllif də özünə borc bilir.

Hər bir gənc romantik duyğular, xüsusilə, qəhrəmanlıq hissləri ilə yaşayır. Baloğlan Rüstəmovun ilk səfərbərlik çağındaca müharibə andı kimi səslənən çıxışını yazıya gətirmək yeni nəsil oxucular üçün çox dəyərli örnəkdir. Səfərbərlik qabağı alman faşistlərinə nifrət təlqin edən mitinqdə Baloğlan Rüstəmov da çıxış edir. Bu barədə Şəddad Cəfərov yazır: "1941-ci ilin iyun ayının 22-də müharibə başlayanda onun artıq 19 yaşı var idi. Mitinqdə iştirak edən müəllim və tərbiyəçilərdən sonra Baloğlanda ona söz verilməsini istədi. O, çıxışında dedi ki, müharibə bizim hamımıza aiddir. Doğma Vətənimiz bizim hamımızı təmannasız oxutdurur, yedizdirir, geyindirir. Bunların hamısını bizə kim verir?! Bizim doğma ana Vətənimiz. Biz onu darda qoya bilmərik. İndi bizim hamımızın əsas borcu, vəzifəsi və işi Vətənimizə basqın edən düşmənlərimizi məhv etməkdir. Dəfələrlə B.Rüstəmov cəbhəyə göndərilməsini xahiş etsə də, etiraz cavabı alırdı. Lakin bu etirazlara baxmayar,nəhayət, dediyinə nail ola bildi. Onu Qızıl Ordu sıralarına çağırdılar. Burada o, hava-desant məktəbində oxudu. Fabrik-zavod təhsilli məktəbin rəhbəri öz yetirməsini hərbi xidmətə göndərərkən ona yaxşı xasiyyətnamə də verdi". Göründüyü kimi müəllif qəhrəmanının təbiətindəki inamı və inadı onun əsas xarakter cizgisi kimi təqdim edir. Göstərir ki, başqaları müharibəyə gedirsə, demək onun tanıdığı Baloğlan Rüstəmov da bu cərgədən qıraqda qala bilməzdi. Onun həyat yolunun ən parlaq, ən işıqlı mərhələləri özündə Vətən sevgisi daşıyan igidlik yolu idi.

Əlbəttə, müharibə başlayanda Şəddad Cəfərovun qeyd etdiyi kim B.Rüstəmovun 19 yaşı var idi. Bu gün 19 yaşlı hər hansı bir gənci uşaq hesab edərdik. Ancaq Qarabağ uğrunda savaş göstərdi ki, bu gənclər, yeniyetmələr öz cəsarətləri ilə sübut edirlər ki, onlar uşaq deyillər. Onlar hər cür oda, alova sinə gərməyə hazır olan qəhrəmanlardır. Beləliklə, oxuduğu peşə təhsili məktəbindən verilən xasiyyətnamə də B.Rüstəmov döyüşən orduya daxil oldu. Müəllifin qeyd etdiyi kimi bu yol onun üçün əsil kişilik, mərdlik, hərbi ustalıq məktəbi oldu.

Şəddad Cəfərov qəhrəmanı B.Rüstəmovu robot insan kimi təsvir etmir. Onun insani keyfiyyətlərinə, səmimiyyətinə, qorxmazlığına, cəsarətinə, ən başlıcası, inamına xüsusi diqqət yetirir. Göstərir ki, onun qəhrəmanı təcrübəli döyüşçülərlə necə bərabər addımlaya bilir. Hər cəhətdən onlara tay olmağa çalışır: "O, uzun və ağır səhra yoldaşlarına kömək edər, birinin əşya torbasını götürər, başqasına qumbara və güllələri daşımaqda kömək edər, bəzən də məzəli əhvalatlar söyləyərək onları ruhlandırardı". Bu mətnin özü də göstərir ki, hər bir döyüşçü nə qədər sərt həyatın içində olsa da, o həm də insandır. Hətta öz təbiəti ilə ailəsini təmsil edir. Mənsub olduğu xalqın təbiətinin nümunəsi olaraq görünür.

Şəddad Cəfərovun "Nəsillərə nümunə" adlandırdığı igidlik povestinin çox maraqlı səhifələri var. Və bu barədə oxucularımıza ətraflı məlumat vermək istəyindəyik.

Bu, həm də dövrümüzün tələbidir. Od içində yanan Qarabağımız uğrunda vuruşan əsgərlərimiz önündə verəcəyimiz söz borcumuzdur.

*(Davamı var)*